**Altıncı çağırış Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Hüquq siyasəti komitəsinin iclasının**

**P R O T O K O L U № 3**

**Naxçıvan şəhəri** **23 aprel 2024-cü il**

23 aprel 2024-cü il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsinin növbəti iclası keçirilmişdir.

**Sədrlik edən:** -Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsinin sədri İsmayıl Qəribli

**Katib:** -Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsinin üzvü Aidə Allahverdiyeva

**İclasda iştirak etdilər:**

1. Cəlilzadə Aidə Məhəmməd qızı -Komitənin sədr müavini
2. Həsənov Nüsrət Firudin oğlu -Komitənin üzvü
3. İbrahimov Qadir Abbas oğlu -Komitənin üzvü
4. Səfərli Hacıfəxrəddin Yəhya oğlu -Komitənin üzvü
5. Zeynalov Eldar Əhməd oğlu -Komitənin üzvü

**Dəvət olunanlar:**

1. Cəlil Rüstəmov - Ali Məclis Aparatının Qanunvericilik və hüquq məsələləri şöbəsinin müdiri
2. Ramil Nəbiyev - Ali Məclis Aparatının Deputatlarla, komitələrlə və komissiyalarla iş şöbəsinin müdiri
3. Aləm Bağırov - Nazirlər Kabineti Aparatının rəhbəri
4. Gülçin Dünyamalıyev - Nazirlər Kabineti Aparatının Hüquq şöbəsinin müdiri
5. Əliheydər Qurbanlı - Ali Məclis Aparatının Deputatlarla, komitələrlə və komissiyalarla iş şöbəsinin müdir müavini
6. Elşən Yolçuyev - Ali Məclis Aparatının Protokol sektorunun müdiri
7. Rəmzi İbrahimov - Ali Məclis Aparatının Mətbuat və ictimaiyyətlə əlaqələr sektorunun müdiri
8. Oruc Babayev - Ali Məclis Aparatının Deputatlarla, komitələrlə və komissiyalarla iş şöbəsinin böyük məsləhətçisi

**İclasın gündəliyi:**

**“Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2023-cü il üzrə fəaliyyəti haqqında hesabatı” barədə.**

İclası Komitənin sədri İsmayıl Qəribli açaraq bildirdi ki, iclasda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsinin 7 üzvü, həmçinin Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının və Nazirlər Kabineti Aparatının nümayəndələri iştirak edirlər.

Qeyd etdi ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 42.1-ci maddəsinə əsasən Ali Məclisin komitəsinin iclası onun üzvlərinin yarıdan çoxu iştirak etdiyindən səlahiyyətlidir.

İsmayıl Qəribli iclas iştirakçılarına gündəlikdə duran məsələ ilə bağlı məlumat verdi.

Komitə sədri bildirdi ki, Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 34-cü maddəsinin III hissəsinə və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 23.1-ci maddəsinə uyğun olaraq Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti hər il Ali Məclisin yaz sessiyasında Nazirlər Kabinetinin əvvəlki il üzrə fəaliyyəti haqqında hesabat verir. Daxili Nizamnamənin 23.2-ci maddəsinə uyğun olaraq Nazirlər Kabinetinin hesabatı Ali Məclisin iclasında baxılmamışdan əvvəl Ali Məclisin Hüquq siyasəti komitəsinə rəy verilməsi üçün təqdim edilmişdir.

İsmayıl Qəribli Nazirlər Kabinetinin 2023-cü il üzrə hesabatının Ali Məclisin aid şöbəsi tərəfindən bütün deputatlara göndərildiyini və deputatların məlumatlı olduğunu bildirdi. Hesabat barədə məlumat verməsi üçün söz Nazirlər Kabineti Aparatının rəhbəri Aləm Bağırova verildi.

**Çıxışda:** Aləm Bağırov bildirdi ki, Nazirlər Kabinetinin 2023-cü il üzrə fəaliyyəti haqqında hesabat hazırlanmışdır. Hesabatda hüquq sahəsi üzrə görülən işlər barədə məlumatlar “Ədliyyə sistemi və qanunvericilik”, “Təhlükəsizlik” və “Fövqəladə halların qarşısının alınması” başlıqları altında qeyd olunmuşdur. Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin fəaliyyət istiqamətləri üzrə qarşıya qoyulan əsas vəzifələr və verilmiş tapşırıqların icrası, muxtar respublikada mülki müdafiə, əhalinin və ərazilərin fövqəladə hallardan qorunması, fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması, yanğın təhlükəsizliyinin, tikintidə, sənayedə və dağ-mədən işlərində texniki təhlükəsizliyin təmin olunması istiqamətində qarşıya qoyulmuş vəzifələrin icra vəziyyəti qeyd olunmuş, ictimai asayişin qorunması və cinayətkarlığa qarşı mübarizə barədə məlumat verilmişdir.

Sonra söz Nazirlər Kabineti Aparatının Hüquq şöbəsinin müdiri Gülçin Dünyamalıyevə verildi.

**Çıxışda:** Gülçin Dünyamalıyev bildirdi ki, Ədliyyə, Daxili İşlər, Fövqəladə Hallar nazirlikləri və digər qurumlar tərəfindən 2023-cü ildə görülən işlər barədə məlumatlar alınaraq ümumiləşdirilmiş, Nazirlər Kabinetində keçirilən iclas və müşavirələrdə müzakirə olunmuşdur. Müzakirələr zamanı hüquq-mühafizə

orqanlarının fəaliyyəti ilə yanaşı, büdcə vəsaitlərindən istifadə qaydaları ilə bağlı məsələlər də diqqətdə saxlanılmışdır. Gülçin Dünyamalıyev hesabatda qeyd olunan digər məsələlər barədə də məlumat verdi.

Məsələ ətrafında aparılan müzakirələrdə komitənin sədri İsmayıl Qəribli, sədr müavini Aidə Cəlilzadə, üzvləri Aidə Allahverdiyeva, Nüsrət Həsənov, Eldar Zeynalov, Qadir İbrahimov, Hacıfəxrəddin Səfərli və Ali Məclis Aparatının Qanunvericilik və hüquq məsələləri şöbəsinin müdiri Cəlil Rüstəmov hesabatda cinayətkarlığın dinamikasının müqayisə edilmədiyini, cinayətlərin artma və ya azalma səbəblərinin izah olunmadığını, həmçinin yetkinlik yaşına çatmayanlar tərəfindən törədilmiş cinayətlərin statistikasının olmadığını, narkomaniya və alkoqolizmə qarşı maarifləndirmə tədbirlərinin nəticələrinin hesabatda öz əksini tapmadığını bildirmiş, muxtar respublikada avtomobillərin sayının artmasının avtoqəzaların da artmasına səbəb olduğunu, lakin hesabatda bu dinamikanın da təhlil olunmadığını qeyd etmişlər.

Bundan əlavə, bildirildi ki, bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin təşkili və aktların ekspertizası hesabatda rəqəmlərlə əksini tapmışdır. Ümumilikdə torpaqların satılması və ya uzunmüddətli icarəyə verilməsi ilə bağlı hərracların keçirilməsi, bu sahədə bələdiyyə aktlarının hüquqi ekspertizasının aparılması vəziyyəti ilə bağlı suallar, o cümlədən hüquqi aktların ekspertizası ilə əlaqədar verilən rəylərin qənatbəxş olmaması barədə irad səsləndirildi.

Nazirlər Kabinetinin Aparat rəhbəri Aləm Bağırov və Hüquq şöbəsinin müdiri Gülçin Dünyamalıyev səsləndirilən fikirlərə münasibət bildirərək suallara aydınlıq gətirdilər, irad və təkliflərin nəzərə alınması üçün qeydiyyatını apardılar.

**Çıxışda:** Komitə sədri İsmayıl Qəribli bildirdi ki, komitə iclasında Nazirlər Kabinetinin hesabatı ilə bağlı aparılan müzakirələr faydalı oldu, hesabatla bağlı təklif və iradlar səsləndirildi.

Qeyd etdi ki, Ali Məclisin Hüquq siyasəti komitəsi "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin komitələri haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 6.1-ci maddəsinə əsasən Ali Məclisin komitəsi müzakirə etdiyi məsələlərə dair qərarlar və rəylər qəbul edir.

Sonda İsmayıl Qəribli altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsinin rəyini oxudu və "Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2023-cü ildə fəaliyyəti haqqında hesabatı" irad və təkliflər nəzərə alınmaqla Naxçıvan Muxtar Respublikası Ali Məclisinin müzakirəsinə tövsiyə edildi.

**İclasa sədrlik edən:** **İ.Qəribli**

**Katib:** **A.Allahverdiyeva**